AZƏRBAYCAN RESPUBLİKASININ
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ

ƏMR

№27/2

Bakı şəhəri "14" aprel 2022-ci il

" Uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsi Qaydası"nın qüvvəyə minməsi barədə

"Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın 3.2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə "Uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsi Qaydası" işlənib hazırlanmışdır.

Sözügedən sənədin tətbiqini təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"nin 5.6.6-cı yarımbəndini rəhbər tutaraq,

əmr edirəm:

1. "Uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsi Qaydası" 15 aprel 2022-ci il tarixindən qüvvəyə minsin.
2. Dövlət Mülki Aviasiya Agentliyinin (DMAA) və "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin aidiyyəti mütəxəssisləri tərəfindən Qaydanın öyrənilməsi və icrası təmin edilsin.
3. Qayda DMAA-nın rəsmi internet saytında dərc edilsin.
4. Əmr bütün şəxsi heyətə çatdırılsın.
5. Əmrin icrasına nəzarət direktorun müavini Hacıağa Hacıyevə həvalə edilsin.

Direktor **Arif Məmmədov**

Dövlət Mülki Aviasiya Agentliyinin
direktorunun
27/2№-li 14 aprel 2022-ci il tarixli
Əmri ilə
TƏSDİQ OLUNUB

UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİNƏ NƏZARƏT ÜZRƏ TƏNZİMLƏYİCİ FUNKSİYALARIN VƏ VƏZİFƏLƏRİN ÖTÜRÜLMƏSİ QAYDASI

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi

Sənəd № AAR-GM-008

Nəşr № 01

Qüvvəyə minmə tarixi: 15 aprel 2022ci il

Bakı şəhəri

https://www.caa.gov.az

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ

0.1 Mündəricat

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ 1

0.1 Mündəricat 1

0.2 Səhifələrin Siyahısı 2

0.3 Sənədin Yayılma Siyahısı 3

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı 4

1 Ümumi müddəalar 5

2 Qaydanın tətbiqi dairəsi 5

3 Əsas anlayışlar 6

4 Hava gəmilərinin icarəsi (lizinqi), kirələnməsi və birlikdə istismarı üçün ümumi tələblər 7

5 Hava gəmilərinin icarəsi (lizinqi), kirələnməsi və birlikdə istismarı üçün xüsusi tələblər 8

6 Uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsi üzrə nəzarət 9

7 Hava gəmilərinin icarəsi (lizinqi), kirələnməsi, mübadiləsi və birgə istifadəsi haqqında müqavilələrə dair tələblər 10

8 Hava gəmilərinin icarəsi (lizinqi), kirələnməsi, mübadiləsi və birgə istifadəsi haqqında müqavilələrin qeydiyyatı və məlumat vermə öhdəliyi 11

9 Aviasiya icarəsinin (lizinqinin) növləri 12

10 Hava gəmilərinin natamam icarəsi (Azərbaycan Respublikasının istismarçısı tərəfindən hava gəmisinin uçuş heyətsiz icarəyə götürülməsi) 13

11 Hava gəmilərinin natamam icarəsi (xarici istismarçı tərəfindən hava gəmisinin uçuş heyətsiz icarəyə götürülməsi) 14

12 Hava gəmilərinin tam icarəsi (Azərbaycan Respublikasının istismarçısı tərəfindən hava gəmisinin uçuş heyəti ilə birgə icarəyə götürülməsi) 15

13 Hava gəmilərinin tam icarəsi (xarici istismarçı tərəfindən hava gəmisinin uçuş heyəti ilə birgə icarəyə götürülməsi) 16

14 Hava gəmilərinin qısa müddətli icarəsi (Azərbaycan Respublikasının istismarçısı tərəfindən) 16

15 Hava gəmisinin qismən uçuş heyəti ilə icarəyə götürülməsi 17

16 Hava gəmilərinin lizinqi 17

17 Hava gəmilərinin kirələnməsi (çarteri) 18

18 Hava gəmilərindən və kodlarından birgə istifadə 19

19 İcarəyə Götürülmüş mülki hava gəmilərini müvəqqəti uçota alınması 20

0.2 Səhifələrin Siyahısı

Səhifə	Qüvvəyə minmə tarixi	Reviziya №
1	15.APR.2022	00
2	15.APR.2022	00
3	15.APR.2022	00
4	15.APR.2022	00
5	15.APR.2022	00
6	15.APR.2022	00
7	15.APR.2022	00
8	15.APR.2022	00
9	15.APR.2022	00
10	15.APR.2022	00
11	15.APR.2022	00
12	15.APR.2022	00
13	15.APR.2022	00
14	15.APR.2022	00
15	15.APR.2022	00
16	15.APR.2022	00
17	15.APR.2022	00
18	15.APR.2022	00
19	15.APR.2022	00
20	15.APR.2022	00

0.3 Sənədin Yayılma Siyahısı

Nüsxə №	Nüsxənin tipi	Şöbə	Yerləşdirilib:
Master	**(S)**	Keyfiyyətə nəzərət və normayaratma İdarəsi	DMAA-nın kitabxanası/ Intranet
1	**(S)**	Keyfiyyətə nəzərət və normayaratma İdarəsi	Q-Pulse
2	**(S)**	Keyfiyyətə nəzərət və normayaratma İdarəsi	DMAA-nın rəsmi internet saytı

(S) Soft Copy - (Eelektron nüsxəsi)

(H) Hard Copy – (Çap olunmuş nüsxəsi)

Qeyd: *Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.*

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı

Nəşr/Dəyişiklik №:	Nəşr/Dəyişikliyin tarixi:	Qüvvəyə minib:	Səbəb
Nəşr № 01	15.APR.2022	Dir.Əmri № 27/2 14.04.2022	

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı kolontitulunda göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmi şdəyişiklik. Əsas dəyişilkilər (nömrə və tarix) haqqında məlumat Rəhbərlik sənədin actual məlumatlar siyahısında, müvafiq səhifənin başlığında və mətnin özündə göstərilmişdir.

1 ÜMUMI MÜDDƏALAR

1.1 Bu Qayda Azərbaycan Respublikasının ərazisində icarəyə (lizinqə) götürülmüş, kirələnmiş hava gəmilərindən istifadə edən və ya öz hava gəmilərini icarəyə (kirəyə) verən istismarçıların icarə əsasında istismar etdiyi mülki hava gəmilərinin istismarı ilə əlaqədar hüquq və öhdəliklərin ötürülməsinə dair ümumi tələb, qayda və tədbirlər məcmusunu müəyyən edir.

1.2 Bu Qayda Azərbaycan Respublikası hava nəqliyyatının istismarçıları tərəfindən icarəyə verən tərəf ilə hava gəmilərinin icarəsi haqqında müqavilələrin bağlanılması şərtlərini müəyyən edir və icarəyə götürülmüş hava gəmilərindən icarə haqqında müqavilənin və bu Qaydanın şərtlərinə uyğun olaraq istifadəsini tənzimləyir.

1.3 Bu Qayda 24 iyun 2005-ci il tarixli № 944-IIQ "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 1944-cü il 7 dekabr tarixli "Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiya", "Beynəlxalq mülki aviasiya haqqında" Konvensiyanın dəyişdirilməsinə dair 1980-ci il 6 oktyabr tarixli Protokol " və ona qoşulmaq barədə Azərbaycan Respublikasının 9 noyabr 1999-cu il № 755-IQ saylı Qanunu, Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) Standartları və tövsiyyə olunan təcrübəsi, habelə uçuşların təhlükəsizliyi sahəsində mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmışdır.

1.4 Bu Qaydanın əsas məqsədi Azərbaycan Respublikasının ərazisində icarəyə götürülmüş, kirələnmiş hava gəmilərindən istifadə edən və ya öz hava gəmilərini icarəyə (kirəyə) verən istismarçı aviaşirkətlər tərəfindən həyata keçirilən fəaliyyətin uçuşların təhlükəsizliyinin yüksək səviyyəsinin təmin edilməsi baxımından tənzimlənməsi, həmçinin, uçuşların təhlükəsizliyi sahəsində dövlət nəzarətinin həyata keçirilməsinin səmərəliliyinin təmin edilməsidir.

1.5 Uçuşların təhlükəsizliyinə nəzarət üzə funksiya və vəzifələrin ötürülməsinə dair prosedur məsələlər Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra- Agentlik) tərəfindən təsdiq edilmiş Təlimatla müəyyən edilir.

2 QAYDANIN TƏTBIQI DAIRƏSI

2.1 Bu Qayda mülki hava gəmilərinin icarəsi (lizinqi), kirələnməsi və ya digər hüquqi əsaslarla istismarı zamanı uçuşların təhlükəsizliyinin yüksək səviyyəsinin təmin edilməsi üçün hava gəmilərinin istismarçılarının həyata keçirdiyi fəaliyyətə şamil olunur.

2.2 Bu Qayda ölkədaxili və beynəlxalq uçuşları həyata keçirən digər dövlətə mənsub mülki hava gəmilərinin istismarı ilə əlaqədar hava gəmilərinin istismarçılarının fəaliyyətinə həmin dövlətlər arasında bağlanmış sazişlər nəzərə alınmaqla şamil olunur.

2.3 Bu qayda Azərbaycan Respublikasına məxsus istismarçı tərəfindən, habelə, xarici istismarçı tərəfindən icarə (lizinq) müqaviləsi əsasında lizinq müqaviləsinin obyekti kimi Azərbaycan Respublikasında dövlət qeydiyyatına və dövlət uçotuna alınmış mülki hava hava gəmilərinə və onların istismarına dair fəaliyyətə şamil olunur.

2.4 Bu Qayda ilə dövlətlər arasında bağlanmış sazişlərin müddəaları arasında ziddiyyət yarandıqda, bu Qaydanın müddəaları tətbiq edilir.

2.5 Bu Qayda hərbi təyinatlı hava gəmilərinin icarəsi (lizinqi), kirələnməsi və ya digər hüquqi əsaslarla istismarı üzrə hava gəmilərinin istismarçılarının fəaliyyətinə və hərbi təyinatlı hava gəmilərinə şamil olunmur.

3 ƏSAS ANLAYIŞLAR

3.1 **Aviasiya lizinqi** – aviasiya liainqi predmetinin əldə edilməsi və ya edilməməsi ilə icarə (lizinq) müqaviləsinin icrası zamanı yaranan iqtisadi və hüquqi münasibətlərin məcmusu;

3.2 **Beynəlxalq icarə** - hava gəmisinin dövlət qeydiyyatına alındığı iki dövlətin istismarçıları arasında icarəyə verilməsi;

3.3 **Çarter-** hava daşıyıcısı ilə hava gəmisini kirayə və ya icarəyə verən təşkilat arasında bağlanan müqavilə;

3.4 **Daxili icarə (lizinq) -** icarəyə verən və icarəyə götürənin Azərbaycan Respublikasının rezidenti olduğu icarə;

3.5 **Əməliyyat bazası**- əməliyyat nəzarətinin həyata keçirildiyi yer. Qeyd. Əməliyyat bazası, adətən, hava gəmisinin istismarında iştirak edən personalın və istismarla əlaqədar sənədlərin saxlanıldığı yer;

3.6 **Hava gəmisinin icarəsi müqaviləsi-** kirayəyə verən (icarəyə verən) tərəfindən kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadə ilə yanaşı bəhərdən istifadə etmək və gəlir götürmək hüququ verən əmlak kirayəsi müqaviləsi;

3.7 **Hava gəmisinin lizinqi müqaviləsi**- icarəyə verənin müəyyən əşyanı müqavilə ilə şərtləşdirilmiş müəyyən haqq müqabilində, müəyyən müddətə və digər şərtlərlə (lizinq alana əmlakı satın almaq hüququnun verilməsi də daxil olmaqla) icarəyə götürənin istifadəsinə verməyə borclu olduğu müqavilə;

3.8 **Hava nəqliyyatının kommersiya məqsədilə istismarı** - sərnişinlərin, yüklərin və ya poçtun qonorar və ya kirayə haqqı müqabilində həyata keçirilən hava gəmisinin istismarı;

3.9 **Hava gəmisinin tam icarəsi (lizinqi)** – hava gəmisinin uçuş heyəti ilə birgə icarəyə götürülməsi;

3.10 **Hava gəmisinin natamam icarəsi (lizinqi)** – hava gəmisinin uçuş heyətsiz icarəyə götürülməsi;

3.11 **Hava gəmisinin qismən icarəsi** – hava gəmisinin hissəvi uçuş heyəti ilə birgə icarəyə götürülərək qalan personalın icarəyə götürən tərəfindən təmin edilməsi;

3.12 **Heyət üzvü** - uçuş vaxtı hava gəmisində uçuşun təhlükəsiz yerinə yetirilməsi üzrə vəzifələri yerinə yetirmək üçün istismarçı tərəfindən təyin edilmiş şəxs;

3.13 **Hava gəmisi istismarçısı (daşıyıcı)**- hava gəmilərinin istismarı ilə məşğul olan və ya bu sahədə xidmətlərini təklif edən hüquqi və ya fiziki şəxs;

3.14 **Xüsusi icazə**- xarici ölkələrdən icarəyə götürülmüş və dövlət uçotuna alınmış mülki hava gəmilərinin istismarı zamanı Azərbaycan Respublikasının hava məkanından istifadəyə və Azərbaycan Respublikasının hava limanlarına eniş etməyə verilən icazə;

3.15 **İcarəyə verən** – icarə müqaviləsi əsasında müəyyən haqq müqabilində aviasiya lizinq müqaviləsini həyata keçirərkən aviasiya icarəsi predmetini əldə edən və onu sahiblik hüququ əsasında başqasının istifadəsinə verən fiziki və ya hüquqi şəxs;

3.16 **İcarəyə götürən** - aviasiya fəaliyyətini həyata keçirmək üçün icazəsi olan və aviasiya lizinq müqaviləsinə əsasən aviasiya icarəsi obyektini müvəqqəti sahiblik və istifadə

hüququ əsasında müəyyən ödəniş, müəyyən müddət və müəyyən şərtlər müqabilində qəbul edən fiziki və ya hüquqi şəxs;

3.17 **İstismarçı sertifikatı** - müvafiq icra hakimiyyəti orqanı tərəfindən kommersiya məqsədləri üçün istifadə edilən mülki hava gəmisinin sahibinə və ya istismarçısına verilən sənəd;

3.18 **İstehsalçı dövlət** - hava gəmisinin konstrusiyasının yığılmasına cavabdeh olan təşkilatın yerləşdiyi dövlət;

3.19 **İstismarçı dövlət**- istismarçının əsas iş yerinin yerləşdiyi dövlət və ya belə bir iş yeri yoxdursa istismarçının hüquqi ünvanının olduğu dövlət;

3.20 **Qismən icarə (lizinq)** - hava gəmisinin bir neçə uçuş heyəti üzvləri ilə icarəyə götürülməsi;

3.21 **Qısamüddətli icarə (lizinq)** - Azərbaycan Respublikasının istismarçısı tərəfindən müstəsna istismar ehtiyacları əsasında, ardıcıl olaraq 5 gündən çox olmayan müddətdə qısa müddətə hava gəmisinin uçuş heyəti ilə birgə Agentliyə dərhal məlumat verilməklə icarəsi;

3.22 **Qeydiyyat dövləti**- hava gəmisinin dövlət qeydiyyatına alındığı dövlət;

3.23 **Layihə dövləti** – hava gəmisinin növünün layihələndirilməsinə cavabdeh olan dövlət;

3.24 **Mübadilə**- eyni uçuş heyəti tərəfindən idarə edilən və əməliyyat nəzarəti altında olan hava gəmisinin keçid nöqtəsindəki bir hava gəmisi istismarçısının marşrutunu ikinci hava gəmisinin operatorunun marşrutu ilə birləşdirən xidmət yolu ilə müntəzəm olaraq planlaşdırılan hava gəmisinin və ya müntəzəm uçuşların mübadiləsi;

3.25 **Uçuşa yararlılıq**- hava gəmisinin, mühərrikin və ya pərin növ layihəsinə uyğunluğunu və təhlükəsiz istismarını təmin edən vəziyyəti;

3.26 **Uçuşa yararlılıq üzrə sertifikatlaşdırma**- hava gəmisinə ya onun hissələrinə texniki baxış aparıldıqdan sonra onun mövcud uçuşa yararlılıq tələblərinə cavab verdiyinin təsdiq edilməsi üzrə fəaliyyət;

3.27 **Uçuş heyətinin üzvü** - uçuş vaxtı hava gəmisinin istismarı üçün əsas vəzifələri yerinə yetirmək üçün təyin edilmiş və müvafiq qaydada şəhadətnamə verilmiş şəxs;

3.28 **Uçuşa yararlılığın saxlanılması**- hava gəmisinin istismarı zamanı onun uçuşa yararlılıq tələblərinə uyğunluğunun təmin edilməsi, habelə təhlükəsiz istismarı üçün lazımi səviyyədə saxlanılması məqsədilə həyata keçirilən tədbirlər toplusu;

3.29 **Uçuş əməliyyatlarına nəzarət** – hava gəmisinin həyata keçirdiyi uçuş əməliyyatlarının təhlükəsizliyi, uçuşun müntəzəmliyi və səmərəliliyi baxımından uçuşun başlanması, davam etdirilməsi, dəyişdirilməsi və ya dayandırılması üzərində həyata keçirilən nəzarət.

4 HAVA GƏMİLƏRİNİN ICARƏSI (LIZINQI), KIRƏLƏNMƏSI VƏ BIRLIKDƏ ISTISMARI ÜÇÜN ÜMUMI TƏLƏBLƏR

4.1 Azərbaycan Respublikası hava nəqliyyatının istismarçıları tərəfindən hava gəmilərinin icarə (lizinq) və ya digər hüquqi əsaslarla istismarı yalnız hökumətlər arasında bağlanmış icarə (lizinq) müqaviləsi əsasında həyata keçirilir.

4.2 İstismar edildiyi ölkədən asılı olmayaraq, Azərbaycan Respublikasının mülki hava gəmilərinin dövlət reyestrində dövlət uçotuna alınmış hər bir hava gəmisi qanunvericiliklə müəyyən edilmiş uçuşa yararlılıq və uçuş əməliyyatlarınını həyata keçirilməsi üzrə texniki tələblərə cavab verməli, o cümlədən uçuşların təhlükəsizliyinin yüksək səviyyəsinin təmin edilməsi üzrə qaydalar əsasında istismar edilməlidir.

4.3 Azərbaycan Respublikasının istismarçıları tərəfindən icarəyə götürülən, lakin digər dövlətin yurisdiksiyasında (hava məkanında) uçuşlar yerinə yetirən hava gəmiləri tərəflər arasında icarə (lizinq) müqaviləsində başqa qayda nəzərdə tutulmayıbsa, hava gəmisinin qeydiyyat dövlətinin qaydalarına uyğun istismar edilməlidir.

4.4 Hava gəmisinin Azərbaycan Respublikasının dövlət reyestrində dövlət uçotuna alınması əgər tərəflər arasında bağlanmış icarə (lizinq) müqaviləsində başqa qayda nəzərdə tutulmayıbsa, həmin hava gəmisinin istismarının uçuşların təhlükəsizliyi tələblərinə uyğunluğunun təmin edilməsi öhdəliyinin hava gəmisinin dövlət uçotuna alındığı dövlətə keçməsinə səbəb olur.

4.5 Hava gəmisi Azərbaycan Respublikasının mülki hava gəmilərinin Dövlət reyestrinə daxil edildikdən və hava gəmisinə müvəqqəti uçot haqqında sənəd verildikdən sonra həmin hava gəminin istismarına yol verilir.

4.6 Digər dövlətdə dövlət qeydiyyatında olan heç bir hava gəmisi Agentliyin razılığı olmadan və müvafiq müqavilə bağlanmadan Azərbaycan Respublikasına məxsus istismarçı tərəfindən icarəyə götürülə və istismar oluna bilməz.

4.7 Azərbaycan Respublikasında dövlət qeydiyyatında olan heç bir hava gəmisi Agentliyin razılığı olmadan və müvafiq müqavilə bağlanmadan icarəyə verilə və istismar oluna bilməz.

5 HAVA GƏMİLƏRİNİN ICARƏSI (LIZINQI), KIRƏLƏNMƏSI VƏ BIRLIKDƏ ISTISMARI ÜÇÜN XÜSUSI TƏLƏBLƏR

5.1 Azərbaycan Respublikasının hava nəqliyyatının istismarçıları tərəfindən icarə (lizinq) müqaviləsi əsasında istismar edilən mülki hava gəmisini dövlət uçotuna alan Agentlik həmin hava gəmilərinin uçuş heyətinə şəhadətnamələrin verilməsini həyata keçirir, o cümlədən, hava gəmisini uçuşa yararlılıq və radio avadanlığının uyğunluğu üzrə sertifikatlaşdırır.

5.2 Hava gəmisinin dövlət qeydiyyatına alındığı dövlət hava gəmisinin istismarçı dövlətindən fərqli olduqda hava gəmisinin icarə (lizinq) müqaviləsi əsasında uçuşların təhlükəsizliyi üzrə nəzarət öhdəlikləri hər iki dövlət arasında bölüşdürülür.

5.3 Azərbaycan Respublikası hava nəqliyyatının istismarçıları tərəfindən icarə əsasında istismar edilən hava gəmiləri Azərbaycan Respublikasının Agentlik tərəfindən dövlət qeydiyyatına alınır.

5.4 Azərbaycan Respublikası hava nəqliyyatının istismarçıları tərəfindən icarə əsasında istismar edilən hava gəmiləri Agentlik tərəfindən dövlət uçotuna alınır.

5.5 Hava gəmisini dövlət qeydiyyatına və uçotuna alan Agentlik həmin hava gəmisinin istismar olunduğu ölkədən asılı olmayaraq, Azərbaycan Respublikasının uçuşların təhlükəsizliyi sahəsində qanunvericiliyinin tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirir.

5.6 Azərbaycan Respublikası hava nəqliyyatının istismarçıları tərəfindən icarə (lizinq) müqaviləsi əsasında istismar edilən bütün mülki hava gəmiləri Azərbaycan Respublikasının uçuş əməliyyatlarına dair qaydalarına uyğun istismar edilməlidir.

5.7 Azərbaycan Respublikasının hava nəqliyyatının istismarçıları icarə (lizinq) müqaviləsi əsasında istismar etdiyi bütün mülki hava gəmilərinin Azərbaycan Respublikasının hava gəmilərinin uçuşa yararlığının saxlanılması üzrə qaydaların tələblərinə uyğunluğunu təmin etməlidir.

6 UÇUŞLARIN TƏHLÜKƏSIZLIYINƏ NƏZARƏT ÜZRƏ TƏNZIMLƏYICI FUNKSIYALARIN VƏ VƏZIFƏLƏRIN ÖTÜRÜLMƏSI ÜZRƏ NƏZARƏT

6.1 Hava gəmilərinin icarəsi, kirələnməsi, mübadiləsi və birgə istifadəsi haqqında bağlanan müqavilələr, həmçinin bu Qaydanın 18-cİ hissəsində müəyyən olunmuş qaydada dövlət qeydiyyatı və uçotuna alınmış hava gəmisinin istismarının uçuşların təhlükəsizliyi üzrə tələblərə uyğunluğuna nəzarət Agentlik tərəfindən həyata keçirilir.

6.2 Agentlik bu Qaydanın 6.1-ci bəndində qeyd edilmiş nəzarəti bu Qayda və bu qaydanın 1.5-ci bəndində müəyyən edilmiş Təlimat əsasında həyata keçirir.

6.3 İcarə (lizinq) müqaviləsi əsasında istismar edilən icarəyə götürülmüş hava gəmilərinin uçuşa yararlı vəziyyətdə saxlanması və istismarı üzrə nəzarətin həyata keçirilməsi üçün dövlətlər arasında nəzarət məsuliyyətinin bölünməsi haqqında müvafiq ikitərəfli Saziş imzalanır.

6.4 Agentlik bu Qaydanın 6.1-ci bəndində qeyd edilmiş nəzarəti həyata keçirmək üçün icarəyə götürülmüş hava gəmilərinin dövlət uçotunu aparır.

6.5 İcarəyə götürülmüş hava gəmiləri uçota alındıqdan sonra hər növ aviasiya lizinqi üzrə istismar tələblərini müəyyən edən Təlimat istismarçı tərəfindən hazırlanaraq təsdiq edilməsi üçün Agentliyə təqdim edilir.

6.6 Digər dövlətdə dövlət qeydiyyatında olan və Azərbaycan Respublikasında istismar edilməsi üçün icarəyə götürülən hava gəmisinin icarə müqaviləsi üzrə ötürülən nəzarət öhdəlikləri çərçivəsində müvafiq funksiya və vəzifələrin həyata keçirilməsinin mümkünlüyünü müəyyənləşdirmək üçün Agentlik aşağıdakı məsələləri yoxlayır:

6.6.1 Uçuş heyəti üzvlərinin şəhadətnamələrinin, o cümlədən tibbi rəylərin etibarlılığını;

6.6.2 Təlim proqramlarının və uçuş heyətinə təlim keçən təşkilatların qeydiyyat dövləti tərəfindən tanınmasını;

6.6.3 Uçuş heyətinin təlimi üçün istifadə edilən uçuşu simulə edən təlim qurğularının və bütün təlim alətlərinin qeydiyyat dövləti tərəfindən tanınmasını;

6.6.4 İcarəyə verən dövlət tərəfindən verilmiş hava gəmisinin uçuş yararlılığına dair sertifikatın, radio lisenziyalaşdırmanın və uçuş heyətinə verilmiş şəhadətnamələrin etibarlılığını;

6.6.5 Hüquq və öhdəliklərin ötürülməsinə dair icarə müqaviləsində müəyyən edilmiş uçuş ların təhlükəsizliyinə nəzarət üzrə müfəttiş yoxlamalarının həyata keçirilməsinin mümkünlüyünü;

6.6.6 Hava gəmisinin qeydiyyat dövləti tərəfindən uçuşa yararlılıq üzrə sertifikatın verildiyini və uçuş yararlılığının saxlanılmasını.

6.7 Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınan və digər dövlətdə istismar üçün icarəyə götürülən hava gəmilərinin dövlət uçotu zamanı Agentlik istismarçı dövlət tərəfindən müqavilədə göstərilən bütün vəzifələri yerinə yetirmək üçün qeydiyyat dövlətinə lazımi hesabatların verilməsini təmin edən müvafiq prosedurların olub-olmadığını yoxlayır.

7 HAVA GƏMİLƏRİNİN ICARƏSI (LIZINQI), KIRƏLƏNMƏSI, MÜBADILƏSI VƏ BIRGƏ ISTIFADƏSI HAQQINDA MÜQAVILƏLƏRƏ DAIR TƏLƏBLƏR

7.1 Konvensiyanın 83 bis maddəsinin Azərbaycan Respublikası tərəfindən ratifikasiya olunması uçuşların təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi üzrə öhdəliklərin qeydiyyat dövlətindən istismarçı dövlətə avtomatik keçməsinə əsas vermədiyi üçün, dövlətlər nəzarət öhdəliklərinin ötürülməsi haqqında müqavilə imzalayır.

7.2 Bu müqavilə ötürüləcək nəzarət öhdəliklərinin çərçivəsini müəyyən edir. Bu səlahiyyətlər Konvensiyanın 12, 30, 31 və 32-ci maddələrinə uyğun olaraq, uçuş qaydaları, radio sertifikatlaşdırma, uçuşa yararlılıq üzrə sertifiktlaşdırma və uçuş yararlılığının saxlanılması, o cümlədən uçuş heyətinin və heyət üzvlərinin şəhadətnamələndirilməsi kimi funksiyaların tam və ya qismən ötürülməsini əhatə edir.

7.3 Bu Qaydanın 7.2-ci bəndində qeyd edilən səlahiyyətlərdən hər hansı biri üzrə öhdəliklərin istismarçı dövlətə ötürülməsi və ya ötürülməməsi müqavilədə konkret göstərilmədiyi halda, uçuşların təhlükəsizliyinə nəzarət üzrə öhdəliklər qeydiyyat dövlətinin üzərində qalır.

7.4 Tərəflər arasında bağlanmış müqavilədə həmçinin uçuşların təhlükəsizliyinə nəzarətin predmeti olacaq mülki hava gəmisi haqqında məlumatlar da əks olunur.

7.5 Hava gəmilərinin icarəsi (lizinqi) haqqında müqavilələr ən azı bir il müddətinə bağlanmalıdır.

7.6 Azərbaycan Respublikası hava nəqliyyatı istismarçıları yalnız aşağıdakı sənədlər əsasında icarəyə verən ölkənin aviasiya müəssisələri ilə hava gəmilərinin icarəsi haqqında müqavilə bağlaya bilər:

7.6.1 Azərbaycan Respublikasının və icarəyə verən ölkənin mülki aviasiyasını idarə edən dövlət orqanları tərəfindən imzalanan, Razılığa kələn dövlətlərin aviasiya müəssisələrinə öz aralarında hava gəmilərinin icarəsi haqqında müqavilə bağlamaq hüquqi verən, “hava gəmilərinin icarəsi haqqında” müvafiq “Memorandum” və ya “Saziş”;

7.6.2 Müəyyən edilmiş qaydaya uyğun olaraq bu icarənin Agentlik və icarəyə verən ölkənin mülki aviasiyasını idarə edən dövlət orqanları tərəfindən rəsmi şəkildə təsdiq edilməsi;

7.6.3 Hava gəmilərinin icarəsi haqqında hər bir müqavilə üzrə Agentlik və icarəyə verən ölkənin mülki aviasiyasını idarə edən dövlət orqanları arasında bağlanmış “İcarəyə götürülmüş hava gəmilərinin uçuş yararlığının qorunub saxlanmasına nəzarət etmə, habelə bunların istismarının yoxlanması üçün məsuliyyətin dəqiq müəyyən edilməsi prosedurları barədə Saziş.

7.7 Azərbaycan Respublikasının və xarici dövlətin hava nəqliyyatının istismarçıları arasında hava gəmilərinin icarəsi (lizinqi), kirələnməsi, mübadiləsi və birgə istifadəsi haqqında bağlanan müqavilələr aşağıdakı tələblərə cavab verməlidir

7.7.1 Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və digər qanunvericilik aktlarına, o cümlədən, Azərbaycan Respublikasının qoşulduğu hava nəqliyyatı haqqında hökümətlərarası Sazişlərə, Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın müddəalarına və onun Əlavələrinə uyğun olmalı və Agentlik ilə razılaşdırılmalı;

7.7.2 Hava gəmisini, uçuş heyətini, hava daşımalarını həyata keçirən istismarçıların sərnişinlər və üçüncü şəxslər qarşısında məsuliyyətini sığorta etmək vasitəsilə sığorta müdafiəsini təmin etməli;

7.7.3 İcarəyə götürənin və icarəyə verənin maliyyə mənafeyinin müdafiəsinə dair tələbəri əks etdirməlidir.

7.8 Hava gəmilərinin icarəsi (lizinqi), kirələnməsi, mübadiləsi və birgə istifadəsi haqqında müqavilədə aşağıdakılar üzrə məsrəflər nəzərdə tutulmalıdır:

7.8.1 Xarici hava gəmisinin Azərbaycan Respublikasında qüvvədə olan uçuş yararlığı normaları üzrə sertifikasiyası üzrə;

7.8.2 Bu Əsasnaməyə və Agentlik tərəfindən təsdiq edilmiş Təlimata uyğun olaraq icarəyə verən və ya icarəyə götürənin hesabına (razılıq əsasında) aparılan uçuşların təhlükəsizliyinin təmin edilməsinə dair yoxlama üzrə;

7.8.3 Agentliyə müqaviləyə uyğun olaraq uçuş yararlığının qorunub saxlanmasına dair öhdəliklər ötürüldükdə, Agentliyin müvafiq xidməti həyata keçirəcək müfəttiş heyətinin hazırlanması üzrə.

7.9 Hava gəmisinin icarəsi (lizinqi) haqqında müqaviləyə icarə müddətində hava gəmisinin üzərində hansı dövlətin fərqləndirici nişanlarının vurulacağını və uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün hansı konkret öhdəliklərin ötürülməsini dəqiq müəyyənləşdirən müddəalar daxil edilməlidir.

7.10 Hava gəmisinin icarəsi (lizinqi) müqaviləsində lizinqin növündən asılı olaraq, uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə müvafiq ödənişlər nəzərdə tutulur.

7.11 Lizinq müqaviləsinin forması və onun tərəflərinin hüquq və vəzifələri, o cümlədən lizinq müqaviləsi üzrə ödənişlər Azərbaycan Respublikası Mülki Məcəlləsinin 748 və 748-1-ci maddələri və Lizinq xidməti haqqında Azərbaycan Respublikasının 29 noyabr 1994-cü il 930 nomrəli Qanununun III və IV fəsilləri ilə tənzimlənir.

7.12 Lizinq müqaviləsi əsasında icarəyə götürülmüş mülki hava gəmilərinin reyestri Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2007-ci il tarixli, № 564 Fərmanı ilə təsdiq edilmiş "Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları"na əsasən, azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən aparılır.

8 HAVA GƏMİLƏRININ ICARƏSI (LIZINQI), KIRƏLƏNMƏSI, MÜBADILƏSI VƏ BIRGƏ ISTIFADƏSI HAQQINDA MÜQAVILƏLƏRIN QEYDIYYATI VƏ MƏLUMAT VERMƏ ÖHDƏLIYI

8.1 Hava gəmisinin icarəsi (lizinqi) haqqında müqavilə Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın 83-cü maddəsinə, İCAO-nun Hava hərəkətinə dair müqavilələr və razılaşmalar haqqında 2004-cü il tarixli Doc 6685-C\767 saylı Təlimatına və Konvensiyanın 83 bis maddəsinin tətbiq edilməsi haqqında 2017-ci il tarixli, *Doc 10059 saylı* Təlimatına əsasən İCAO-da qeydiyyatdan keçməlidir.

8.2 İcarə müqaviləsi əsasında uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə hansı öhdəliklərin və hüquqların ötürülməsi haqqında məlumat müqaviləyə tərəf olan Üzv Dövlətlər tərəfindən iCAO-ya təqdim edilməlidir.

8.3 İCAO hava gəmisinin icarəyə verilməsi əsasında onun istismarına uçuşların təhlükəsizlyinə nəzarət üzrə funksiyaların və öhdəliklərin müvafiq istismarçı dövlətə ötürülməsi haqqında və müqavilə hüquqi qüvvəsini bitdikdə isə yenidən həmin səlahiyyətlərin hava gəmisinin qeydiyyat dövlətinə keçməsi haqqında üçüncü dövlətləri məlumatlandırımalıdır.

8.4 İCAO-da qeydiyyata alınmış və müvafiq qaydada dərc edilmiş hava gəmisinin icarə müqaviləsi Konvensiyanın 83 bis maddəsini ratifikasiya etmiş bütün üzv dövlətlər üçün məcburi hüquqi qüvvəyə malikdir.

8.5 Icarə müqaviləsinin rəsmi dərc edilməsi ilə qeydiyyat dövləti hava gəmisinin uçuş yararlılığının saxlanılması və hava gəmisinin uçuş əməliyyatlarının uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarət üzrə hüquq və öhdəliklərini İstismarçı dövlətə ötürür.

8.6 İcarəyə verilmiş hava gəmisi Konvensiyanın 83 bis maddəsini ratifikasiya etməmiş və ratifikasiya etmiş lakin, icarə müqaviləsi haqqında məlumatlandırılmamış üzv dövlətin hava məkanına daxil olduqda, hava gəmisinin istismarçısı nəzərə almalıdır ki, uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarət üzrə öhdəliklərin ötürülməsi üzrə müqavilə bu Dövlətdə tətbiq edilmir.

9 AVIASIYA ICARƏSININ (LIZINQININ) NÖVLƏRI

9.1 Natamam icarə (lizinq) *(hava gəmisinin Azərbaycan Respublikasının istismarçısı tərəfindən icarəyə götürülməsi)*- hava gəmisinin uçuş heyətsiz icarəsi (lizinqi) növündə icarəyə götürən Azərbaycan Respublikasınıın istismarçısı bu zaman uçuşların təhlükəsiz həyata keçirilməsi üzərində nəzarəti həyata keçirərək, hava gəmisini öz uçuş heyəti ilə təmin edir və uçuşa yararlılığın saxlanılmasını və sığorta məsəllərini həll edir. Azərbaycan Respublikasının rezidenti olmayan icarəyə verən isə müqavilə və Konvensiyanın 83 bis maddəsinə əsasən, hava gəmisini yalnız icarəyə verir.

9.2 Natamam icarə (lizinq) *(hava gəmisinin xarici dövlətin istismarçısı tərəfindən icarəyə götürülməsi)*- hava gəmisinin uçuş heyətsiz icarəsi (lizinqi) növündə icarəyə götürən xarici dövlətin istismarçısı bu zaman uçuşların təhlükəsiz həyata keçirilməsi üzərində nəzarəti həyata keçirərək, hava gəmisini öz uçuş heyəti ilə təmin edir və uçuşa yararlılığın saxlanılmasını və sığorta məsəllərini həll edir. Azərbaycan Respublikasının rezidenti olan icarəyə verən isə müqavilə və Konvensiyanın 83 bis maddəsinə əsasən, hava gəmisini yalnız icarəyə verir.

9.3 Tam icarə (lizinq) *(hava gəmisinin Azərbaycan Respublikasının istismarçısı tərəfindən icarəyə götürülməsi)*- hava gəmisinin uçuş heyəti ilə birgə icarəsi (lizinqi) növündə icarəyə götürən – Azərbaycan Respublikasınıın istismarçısı bu zaman uçuşların təhlükəsiz həyata keçirilməsi üzərində nəzarəti həyata keçirərək, hava gəmisini öz uçuş heyəti ilə təmin edir və uçuşa yararlılığın saxlanılmasını və sığorta məsəllərini həll edir. Heyətə pilotlar, mühəndislər və uçuş üzrə xidmətçilər daxildir.

9.4 Tam icarə (lizinq) *(hava gəmisinin xarici dövlətin istismarçısı tərəfindən icarəyə götürülməsi)*- hava gəmisinin uçuş heyəti ilə birgə icarəsi (lizinqi) növündə icarəyə götürən – xarici dövlətin istismarçısı bu zaman uçuşların təhlükəsiz həyata keçirilməsi üzərində nəzarəti həyata keçirərək, hava gəmisini öz uçuş heyəti ilə təmin edir və uçuşa yararlılığın

saxlanılmasını və sığorta məsəllərini həll edir. Heyətə pilotlar, mühəndislər və uçuş üzrə xidmətçilər daxildir.

9.5 Qismən icarə (lizinq) - hava gəmisinin bir neçə uçuş heyəti üzvləri ilə icarəyə götürülməsi.

9.6 Daxili icarə (lizinq) - icarəyə verən və icarəyə götürənin Azərbaycan Respublikasının rezidenti olduğu icarə

9.7 Qısamüddətli icarə (lizinq) - Azərbaycan Respublikasının istismarçısı tərəfindən müstəsna istismar ehtiyacları əsasında, ardıcıl olaraq 5 gündən çox olmayan müddətdə qısa müddətə hava gəmisini uçuş heyəti ilə birgə Agentliyə dərhal məlumat verilməklə icarəsi.

10 HAVA GƏMİLƏRİNİN NATAMAM ICARƏSI (AZƏRBAYCAN RESPUBLIKASININ ISTISMARÇISI TƏRƏFINDƏN HAVA GƏMISININ UÇUŞ HEYƏTSIZ ICARƏYƏ GÖTÜRÜLMƏSI)

10.1 Xarici dövlətdə qeydiyyatda olan və Azərbaycan Respublikasının istismarçısı tərəfindən icarəyə götürülən hava gəmisinin uçuş əməliyyatlarına və uçuş yararlılığının saxlanılmasına nəzarət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

10.2 Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmayan hava gəmisinin icarəsi haqqında müqavilə hava gəmisinin qeydiyyatda olduğu dövlətin mülki aviasiya sahəsini tənzimləyən səlahiyyətli orqanının hava gəmisinə texniki və uçuş əməliyyatlarına nəzarət öhdəliklərinin ötürülməsinə razı olduğu halda Agentlik ilə bağlanmış müqavilə əsasında Agentlik belə nəzarəti həyata keçirir.

10.3 Dövlətlər arasında icarə müqaviləsi razılaşdırıldıqda lakin, nəzarət üzrə öhdəliklərin verilməsi haqqında razılığa gəlinmədikdə, icarəyə verən aşağıdakıları sübut etməyə borcludur:

10.3.1 Hava gəmisinin qeydiyyat dövlətinin qanunvericiliyinə uyğun olaraq uçuş yararlılığının saxlanılması tələblərinə cavab verdiyini;

10.3.2 Hava gəmisinin qeydiyyatda olduğu dövlətin və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən uçuş əməliyyatlarını həyata keçirəcəyini.

10.4 Qeydiyyat dövlətindən istismarçı dövlətə ötürülən uçuşların təhlükəsizliyinə nəzarət üzrə öhdəliklər qeydiyyat dövlətinin razılığı olmadan üçüncü dövlətə ötürülə bilməz.

10.5 Hava gəmisinin uçuş heyətsiz icarəyə götürüldüyü halda hava gəmisinin icarəsi haqqında müqavilədə hava gəmisinin uçuş heyətsiz icarəyə götürülməsi göstərilməlidir.

10.6 İcarəyə götürülmüş hava gəmisini istismar edilməsi üçün icarəyə götürən istismarçı hava gəmisininin dövlət uçotuna alınması məqsədilə aşağıda qeyd edilən sənədləri Agentliyə təqdim edir:

10.6.1 Hava gəmisinin növü, seriya (zavod) nömrəsi və istehsal edildiyi il haqqında sənədləri;

10.6.2 Hava gəmisinin qeydə alınmış sahibinin (icarəyəverən-fiziki şəxsin adı, soyadı, yaşayış yeri) və ya (icarəyəverən-təşkilatın adı və hüquqi ünvanı), o cümlədən hava gəmisinin qeydiyyat dövləti və qeyd nişanları haqqında məlumatları;

10.6.3 Hava gəmisinin dövlət qeydiyyatı haqqında şəhadətnamə, hava gəmisinin uçuşa yararlığı haqqında və hava gəmisinin yerdə səs üzrə yararlığı haqqında vəsiqələrin müvafiq qaydada notariatda təsdiq edilmiş surətlərini;

10.6.4 İcarəyə götürülmüş hava gəmisinin qeydiyyata alındığı dövlətin uçuş yararlığına dair tələblərinə tam cavab verməsi haqqında onun sahibi tərəfindən verilmiş yazılı təsdiqi;

10.6.5 İcarə haqqında müqaviləyə uyğun olaraq müəyyən hava gəmisinin uçuşlarının idarə olunması üçün məsuliyyət daşıyan şəxsin və ya icarəyə götürənin nümayəndəsinin adı, soyadı və yaşayış yeri (təşkilatın adı, hüquqi ünvanı), habelə həmin şəxsin və icarə haqqında müqavilə üzrə tərəflərin tətbiq edilən qaydalara uyğun olaraq hər birinin öz məsuliyyətini tam dərk etməsi haqqında yazılı bəyanatları;

10.6.6 Hava gəmisinin icarəsi haqqında müqavilənin surətini.

10.7 Bu Qaydanın 10.6.1-10.6.6-cı yarımbəndlərində qeyd edilmiş sənədlərlə yanaşı, hava gəmisinin istismarçısı Agentliyə icarəyə götürülən hava gəmisinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tələb, qayda və normalara, o cümlədən, istismarçının göstəriş və təlimatlarına uyğun olaraq istismar ediləcəyi barədə yazılı iltizamı təqdim etməlidir.

10.8 Uçuş heyətsiz hava gəmisinin icarəsi haqqında təqdim edilən sənədlər bu Qaydanın tələblərinə cavab verdikdə, Agentlik hava gəmisini uçota alır.

11 HAVA GƏMİLƏRİNİN NATAMAM ICARƏSI (XARICI ISTISMARÇI TƏRƏFINDƏN HAVA GƏMISININ UÇUŞ HEYƏTSIZ ICARƏYƏ GÖTÜRÜLMƏSI)

11.1 Aşağıdakı şərtlərin təmin edildiyi halda Agentlik Azərbaycan Respublikasının istismarçısına öz mülkiyyətində olan hava gəmisini digər dövlətin istismarçısına icarəyə verməsinə razılıq verir:

11.1.1 Hava gəmisi uçuşa yararlılıq üzrə sertifikatlaşdırıldıqda və uçuş yararlılığının saxlanılmasına dair sənədlər təqdim edildikdə;

11.1.2 Hava gəmisinin uçuşa yararlılığına və uçuş əməliyyatlarına uçuşların təhlükəsizliyi baxımından nəzarətin icarəyə götürənin səlahiyyətinə verildikdə;

11.1.3 Hava gəmisinin icarə müqaviləsində icarənin müddəti konkret müəyyən edildikdə.

11.2 İcarəyə verilən hava gəmisi Azərbaycan Respublikasının dövlət qeydiyyatından çıxarılmadıqda icarəyə götürən istismarçı hava gəmisini müvafiq sertifikatı olan uçuş heyəti və texniki personalla təmin etməlidir.

11.3 Azərbaycan Republikasının dövlət qeydiyyatından cıxarılaraq icarəyə verilən hava gəmisi qeydiyyata alındığı dövlətin qanunericiliyinə uyğun olaraq istismar olunmalıdır.

11.4 Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınan hava gəmisinin icarəsi haqqında müqavilə hava gəmisini istismar edən dövlətin mülki aviasiya sahəsini tənzimləyən səlahiyyətli orqanının hava gəmisinə texniki və uçuş əməliyyatlarına nəzarət öhdəliklərinin ötürülməsinə razı olduğu halda Agentlik ilə bağlanmış müqavilə əsasında istismarçı dövlət belə nəzarəti həyata keçirir.

12 HAVA GƏMILƏRININ TAM ICARƏSI (AZƏRBAYCAN RESPUBLIKASININ ISTISMARÇISI TƏRƏFINDƏN HAVA GƏMISININ UÇUŞ HEYƏTI ILƏ BIRGƏ ICARƏYƏ GÖTÜRÜLMƏSI)

12.1 Azərbaycan Respublikasının istismarçısı tərəfindən hava gəmiləri uçuş heyəti ilə birlikdə icarəyə götürüldükdə icarəyə verən onların uçuşlarını idarə edir və onlar hava gəmilərini qeydə alan dövlətin səlahiyyətli orqanının verdiyi istismarçı Şəhadətnaməsinin müddəalarına uyğun olaraq istismar edilməlidir.

12.2 Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün Agentlik digər dövlətdə qeydiyyatda olan və Azərbaycan Respublikasında tam icarə müqaviləsi əsasında istismar olunan hava gəmisinin uçuş əməliyyatlarına dair müəyyən məhdudiyyətlər müəyyən edə bilər. Tam icarə müqaviləsi üzrə tətbiq edilən xüsusi uçuş əməliyyatlarının hüquqi qüvvəsi 12 aydan artlq ola bilməz. Əsaslandırılmış uçuş əməliyyatlarına ehtiyac olduqda xüsusi uçuş əməliyyatlarının müddəti 4 aydan 6 ayadək uzadıla bilər.

12.3 Azərbaycan Respublikasının istismarçısı tərəfindən hava gəmiləri uçuş heyəti ilə birlikdə icarəyə götürüldükdə icarə haqqında müqavilə üzrə Agentlik tərəflərdən hansı birinin istismarın həyata keçirilməsi üçün cavabdeh olduğunu müəyyən edərək, tərəflərin icarə haqqında müqavilədə müəyyən edilmiş şərtləri aşağıdakı tələblər üzrə yoxlayır:

12.3.1 Uçuş heyəti üzvlərinə Şəhadətnamələrin (Sertifikatların) verilməsi;

12.3.2 Uçuş heyəti üzvlərinin hazırlanması;

12.3.3 Hava gəmisinin uçuşa yararlığı və texniki xidmətin göstərilməsi;

12.3.4 Dispetçer xidməti göstərilməsi və ya uçuşun müşahidə edilməsi;

12.3.5 Uçuş ekipajının və ekipaj üzvülərinin iş cədvəli;

12.3.6 Hava gəmisinə texniki xidmət haqqında müqavilənin olması;

12.3.7 İcarəyə götürülmüş hava gəmisinin yanğından mühafizəsinin təmin edilməsinə dair tərəflərin öhdəliklərinin icarə haqqındakı müqavilədə müəyyənləşdirilməsi;

12.3.8 Hava gəmisinin uçuş və texniki istismarı üçün sənədlərin olması;

12.3.9 Hava gəmilərinə texniki xidmət və sərnişinlərə xidmət üçün texniki vəsait, avadanlıq, ləvazimatın, mütəxəssis və laboratoriyaların mövcudluğu.

12.4 Hava gəmilərinin ekipajla birlikdə icarəsi haqqında müqavilə məqbul olduqda Agentlik istismar tələblərini işləyib hazırlayaraq təsdiq edir və istismarçıya- icarəyə götürənə təqdim edir.

12.5 Agentlik və icarəyə verən ölkənin mülki aviasiya sahəsini idarə edən dövlət orqanı arasında istismarçı - icarəyəgötürən tərəfindən uçuş heyyətinin qüvvədə olan şəhadətnamə və vəsiqələrinin etibarlı sayılmasına dair müvafiq razılıq əldə olunmayıbsa, Agentliyin razılığı ilə istismarçı nəzəri və praktik biliklərinin təsdiqi üçün uçuş heyətini icarəyəverən ölkəyə göndərə bilər.

13 HAVA GƏMILƏRININ TAM ICARƏSI (XARICI ISTISMARÇI TƏRƏFINDƏN HAVA GƏMISININ UÇUŞ HEYƏTI ILƏ BIRGƏ ICARƏYƏ GÖTÜRÜLMƏSI)

13.1 Hava gəmisini icarəyə verən Azərbaycan Respublikasının istismarçısı hava gəmisinin uçuşların təhlükəsizliyi tələblərinə uyğunluğuna cavabdehdir.

13.2 Agentlik icarəyə götürülən hava gəmisinin istismarçısına məxsus olan uçuş heyətinin nəzəri və praktik biliklərini təsdiq edir və onlara şəhadətnamə verir.

13.3 İcarə haqqında müqavilədə səlahiyyətlərin ötürülməsi haqqlnda razılıq olmadıqda, uçuş heyəti ilə birlikdə icarəyə götürülmüş hava gəmisinin icarəyə götürəndən aşağıdakı vəzifələrin həyata keçirilməsi tələb edilir:

13.3.1 Pilotlar, hava gəmisinin mühəndisləri və şturmanları müasir tələblərə cavab verən qeydiyyat dövləti tərəfindən verilən və qüvvədə olan müvafiq şəhadətnamələrə malik olmalı

13.3.2 Uçuş yararlığına dair qeydiyyat dövlətinin müəyyən etdiyi tələblərə uyğun olaraq hava gəmisi texniki xidmətlə təmin edilməli

13.3.3 Hava gəmisi qeydiyyat dövlətinin müvafiq qaydalarına, uçuşların yerinə yetirilməsi və texniki xidmət üzrə təlimatlara, istismarçı şəhadətnaməsinin müddəalarına və müvafiq istismar tələblərinə uyğun olaraq istismar edilməlidir.

13.4 İcarəyə götürülmüş hava gəmisinin istismarı üçün icazə verildikdən sonra Agentliyin müfəttiş heyəti uçuşların yerinə yetirilməsinə və bu hava gəmisinə texniki xidmət göstərilməsinə nəzarət edir. Müfəttiş tərəfindən hava gəmisini qeydə alan Azərbaycan Respublikasının müvafiq qaydalarının istismarçı tərəfindən yerinə yetirilmədiyi aşkar edildikdə, o, həmin dövlətin səlahiyyətli orqanını bu barədə xəbərdar etməklə və hadisənin araşdırılması üçün vəsadət qaldırır.

14 HAVA GƏMILƏRININ QISA MÜDDƏTLI ICARƏSI (AZƏRBAYCAN RESPUBLIKASININ ISTISMARÇISI TƏRƏFINDƏN)

14.1 Azərbaycan Respublikasının istismarçısı tərəfindən müstəsna uçuş əməliyyatlarının keçirilməsinə ehtiyac yarandıqda, uçuş heyəti ilə birgə 5 günlük müddəti aşmamaqla hava gəmisi qısa müddətli icarəyə götürülə bilər. Bu zaman icarə haqqlnda müqavilə Agentliyin razılığı olmadan, lakin Agentliyə aşağıdakı məlumatlar təqdim edilməklə məlumat verilir:

14.1.1 Agentlik tərəfindən verilmiş etibarlı istismarçı sertifikatının olması;

14.1.2 Istismara verən tərəfin agentlik tərəfindən müəyyən edilən uçuşların təhlükəsizliyinin təmin edilməsinə dair standart və qaydalara əməl edilməsinə məsuliyyət daşıyacağına dair bəyanat;

14.1.3 Hava gəmisinin uçuş əməliyyatlarına başlayacağı andan 5 günlük istismar müddətini aşmayacağına dair bəyanat.

15 HAVA GƏMISININ QISMƏN UÇUŞ HEYƏTI ILƏ ICARƏYƏ GÖTÜRÜLMƏSI

15.1 Hava gəmisi qismən uçuş heyəti ilə icarəyə götürüldükdə aşağıdakı şərtlərə əməl edilməlidir:

15.1.1 Hava gəmisi ilə birgə icarəyə götürülən icayəyə verən istismarçının aviasiya personalı icarəyə götürülən istismarçı tərəfindən onun dövlətinin qanunvericiliyinə uyğun olaraq işə götürülməlidir.

15.1.2 Hava gəmisini qismən uçuş heyəti ilə icarəyə götürən istismarçının icarəyə götürülən hava gəmisinin uçuş əməliyyatlarına cəlb edilən qismən uçuş heyəti müvafiq olaraq istismarçı və icarəyə verən tərəfindən hava gəmisinin tam icarəyə götürülməsini tənzimləyən qanunvericiliyə uyğun olaraq işə götürülməlidir.

16 HAVA GƏMILƏRININ LIZINQI

16.1 Azərbaycan Respublikasında hava gəmilərinin lizinq üzrə istismara götürülməsi Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Lizinq haqqında" Azərbaycan Respublikasının Qanunu və digər qanunvericilik aktlarına və icarəyə verən və icarəyə götürən dövlətlər arasında bağlanmış lizinq müqavilələrinə uyğun olaraq tənzimlənir.

16.2 Aşağıdakılar lizinq müqaviləsinin subyektidir:

16.2.1 Öz əmlakını (hava gəmilərini) lizinq müəssisəsinə satan hüquqi və fiziki şəxslər;

16.2.2 Əmlakı (hava gəmilərini) satın alan və istehlakçıya icarəyə verən lizinq müəssisələri;

16.2.3 Əmlakı (hava gəmilərini) icarəyə götürən hüquqi və fiziki şəxslər;

16.3 Lizinq müqaviləsi bağlanarkən aşağıdakı tələblərə riayyət edilməlidir:

16.3.1 Lizinq müqaviləsinin obyekti olan hava gəmisi bu müqavilədə nəzərdə tutulan təyinat üzrə istifadə edilməlidir;

16.3.2 Lizinq müqaviləsinin qüvvədə olma müddətinin son həddi hava gəmisinin istehsalçısı olan - zavod tərəfindən müəyyən edilmiş istismar müddətini aşmamalıdır.

16.4 Lizinq müqaviləsində onun qüvvədəolma müddəti qurtardıqdan sonra hava gəmisinnin lizinq müəssisəsinin razılığı ilə, qalıq dəyəri ödənilməklə icarəyə götürənin mülkiyyətinə keçməsinin mümkünlüyü nəzərdə tutula bilər.

16.5 Lizinq müqaviləsində hava gəmisinin alınması nəzərdə tutulduqda, hava gəmisinin tam dəyərinin ödənməsi qaydası və müddəti icarə haqqında müqavilədə müəyyən edilir və hava gəmisi qanunvericiliklə müəyyən edilmiş qaydada icarəyə götürənin mülkiyyətinə keçir.

16.6 İcarəyəgötürən lizinq müqaviləsinin obyekti olan hava gəmisinin müqavilənin qüvvədə olma müddəti ərzində mühafizəsini və müqavilədə müəyyən edilmiş məqsədlər üçün istifadəsini təmin etməlidir.

16.7 Müqavilədə başqa şərt olmadıqda, onun qüvvədə olma müddəti ərzində hava gəmisinin istifadəsi üzrə cari xərcləri icarəyəgötürən ödəyir.

16.8 İcarəyəgötürən hava gəmisini qəbul edərkən hər hansı nöqsanı aşkara çıxartdıqda, qəbul protokolunda (təhvil-təslim aktında) müvafiq qeyd aparmalı və bu hava gəmisini satmış hüquqi və fiziki şəxslərə qarşı nöqsanların aradan qaldırılması məqsədilə tələblər irəli sürmək üçün lizinq müəssisəsini məlumatlandırmalıdır.

16.9 Lizinq müəssisəsi lizinq müqaviləsi əsasında icarəyə verilmiş hava gəmisinin icarəyəgötürən tərəfindən mühafizəsinə və təyinatı üzrə istifadəsinə nəzarət etmək hüququna malikdir. Bununla əlaqədar olaraq lizinq müqaviləsində müvafiq xərclər nəzərdə tutulmalıdır.

16.10 İcarəyəgötürən lizinq müqaviləsinin obyekti olan hava gəmisini almaq hüququnu müqavilədə nəzərdə tutulmadıqda və ya o bu hüquqdan istifadə etmək istəmədikdə, hava gəmisi müqavilənin müddəti qurtardıqda lizinq müəssisəsinə qaytarılır.

16.11 Lizinq müqaviləsi icarəyə götürənin günahı üzündən pozulduqda o, hava gəmisini lizinq müəssisəsinə qaytarır və vurduğu zərəri ödəyir.

16.12 Lizinq müqaviləsi lizinq müəssisəsinin günahı üzündən pozulduqda o hava gəmisini geri almaqla bərabər icarəyə götürənə vurduğu zərəri də ödəyir.

16.13 Müqavilənin bağlanması, icrası və qüvvədən düşməsilə bağlı mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həll edilir.

17 HAVA GƏMİLƏRİNİN KIRƏLƏNMƏSI (ÇARTERI)

17.1 Hava gəmisini kirələyən istsimarçılar çarter daşımalarının həcmini uçuş marşurutlarını, o baş-bu baş reys üçün nəzərdə tutulan yükləməni göstərməklə çarter daşımalarını həyata keçirəcək hava gəmilərinin tiplərini Agentlik ilə razılaşdırmalıdır.

17.2 Çarter daşımalarının həcmi razılaşdırıldıqda Agentlik Azərbaycan Respublikasında müntəzəm hava daşımalarını yerinə yetirən istismarçıların mənafelərini və rəqabət qabiliyyətini müdafiə etmək məqsədilə həmin çarter daşımalarının istismarçılar tərəfindən yerinə yetirilməsinin mümkünlüyünü nəzərə alır.

17.3 Hava gəmilərinin kirələnməsi (çarteri) haqqında müqaviləyə əsasən tərəflərdən biri (kirayə verən) bir və ya bir neçə hava gəmisinin bütün tutumunu və ya tutumunun bir hissəsini sərnişin, baqaj, yük, poçt daşımaq üçün və ya başqa məqsədlə haqqını almaq şərti ilə bir və ya bir neçə reys müddətinə digər tərəfə verməyi öz öhdəsinə götürür.

17.4 Kirələmə haqqında müqavilədə tərəflərin adı, hava gəmisinin tipi, kirələmənin məqsədi, daşınan sərnişinlərin maksimal sayı, daşınan baqajın , yüklərin və poçtun maksimal həcmi, kirə haqqının miqdarı, hava gəmisinin yola düşmə yeri və vaxtı, təyinat məntəqəsi nəzərdə tutulmalıdır. Kirələmə haqqında müqaviləyə digər şərtlər də əlavə edilə bilər.

17.5 Kirəyə verən hava gəmisinin tutumunu vaxtında təqdim etməli və onu müqavilənin qüvvədəolma müddəti ərzində müqavilədə nəzərdə tutulan məqsədlər üçün istifadəyə yararlı vəziyyətdə saxlamalıdır.

17.6 Kirəyə verən uçuş təhlükəsizliyini təmin etmək məqsədilə hava gəmisinin yola düşmə vaxtını dəyişə, uçuşu ləğv edə, uçuş zamanı hava gəmisinin yerə endirilməsini, dayandırılmasını tələb edə, lazımi təmir işlərini apara, marşurutu dəyişə bilər, habelə müqavilənin şərtlərinə uyğun olaraq hava gəmisinə götürülən sərnişinlər baqac, yük və poçtun həcmini azalda bilər.

17.7 Kirəçi müqavilədə nəzərdə tutulan kirə haqqını vaxtında ödəməli, sərnişinlərin, baqaç, yük, və poçtun təyinat məntəqəsinə vaxtında çatdırılmasını təmin etməlidir.Kirəyə verənin razılığı ilə kirəçi kirələnmiş hava gəmisini subçarterə verə bilər.

17.8 Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq Sazişlərə zidd olmayan öhdəliklər hava gəmisinin kirələnməsi haqqında müqaviləyə əlavə edilə bilər.

17.9 Azərbaycan Respublikası hava Məcəlləsinin VII və VIII fəsilələrində nəzərdə tutulan, sərnişin və yükləri daşıyanın məsuliyyətinə aid olan müddəalara əsasən, kirəyə verən kirələnmiş hava gəmilərində daşımalar yerinə yetirərkən sərnişinlər, yük göndərənlər və alanlar qarşısında məsuliyyət daşıyır.

17.10 Azərbaycan Respublikasının hava gəmisini digər dövlətin sifarişçisi baza yerin dəyişməklə kirələdikdə, Azərbaycan Respublikasının mülki aviasiyasını idarə edən dövlət orqanı kiraçinin hesabına operativ texniki xidmət bazasının sertifikasiyasını keçirir və istismarçının fəaliyyətinə müntəzəm nəzarət edir.

18 HAVA GƏMILƏRINDƏN VƏ KODLARINDAN BIRGƏ ISTIFADƏ

18.1 Azərbaycan Respublikasının istismarçıları və digər dövlətlər qarşılıqlı razılıq əsasında hava gəmilərini birgə istifadə edə bilər.

18.2 Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən istismarçılar Azərbaycan Respublikasının qanunvericiliyinə və mənafelərinə zidd olmadığı halda mülkiyyət formasından asılı olmayaraq, Agentliyin razılığı ilə qarışıq və birgə daşımalar üzrə əməkdaşlıqda iştirak edə bilər.

18.3 Azərbaycan Respublikası və Razılığa gələn dövlətlər tərəfindən birgə istifadə edilən bütün hava gəmiləri birgə istifadə edilən hava gəmilərinin reyestrinə daxil edilməlidir.

18.4 Birgə istifadə edilən hava gəmiləri birgə fəaliyyət müddətində Azərbaycan Respublikasının hava limanlarında yerləşdirilirsə, onların üzərinə Azərbaycan aviasiya şirkəti - icarəyəgötürənin atributları və respublikanın loqotipləri çəkilməlidir.

18.5 Kodların birgə istifadəsi elə bir fəaliyyət növüdür ki, buna uyğun olaraq sərnişin və yük reyslərini yerinə yetirən bir istismarçı digər istismarçının aviasiya şirkətinin kod işarəsini işlətmək üçün ondan icazə alır.

18.6 Kodların birgə istifadəsi haqqında müqavilə Azərbaycan Respublikasının mülki aviasiyasını idarə edən dövlət orqanı ilə razılaşdırılmalıdır. Bu müqaviləni razılaşdırmadan uçuş yerinə yetirmək qadağandır.

18.7 Kodları birgə istifadə etdikdə bir aviasiya şirkəti başqa bir aviasiya şirkətinin müəyyən xidmətlərini özününkü kimi tənzimləyir və satır, başqa sözlə, kodların birgə istifadəsi birdən artıq aviasiya şirkətinə nəqliyyat xidmətləri təklif etməyə və satmağa imkan verir.

18.8 Kodlardan birgə istisfadə Saziş əsasında həyata keçirilir.

19 İCARƏYƏ GÖTÜRÜLMÜŞ MÜLKI HAVA GƏMILƏRINI MÜVƏQQƏTI UÇOTA ALINMASI

19.1 Azərbaycan Respublikasında aviasiya şirkətləri tərəfindən icarə (lizinq) şərtləri əsasında istismar edilən hava gəmiləri Azərbaycan Respublikası hava gəmilərinin dövlət reyestrinə daxil edilməlidir. Belə hava gəmisinə "Müvəqqəti uçot haqqında sənəd (Forma "A") verilir.

19.2 Müvəqqəti uçot haqqında sənəd almaq üçün hava gəmisini istismar etmək üçün icarəyə götürən fiziki və hüquqi şəxslər Agentliyə aşağıdakı sənədlər təqdim etməlidir:

19.2.1 Hava gəmisinin icarəsi (lizinqi) haqqında müqavilənin notariatda təsdiq edilmiş surəti;

19.2.2 Hava gəmisinin birdən artıq sahibi olduqda hava gəmisinin icarəyə (lizinqə) verilməsinə dair əmlakın üzərində hüquqa malik şəxslərin razılığı haqqında sənəd;

19.2.3 Hava gəmisi (və ya onun bir hissəsi) dövlətə məxsus olduqda icarəyə verən ölkənin dövlət əmlakını idarə edən dövlət orqanının icazəsini (razılığını) bildirən sənəd;

19.2.4 Hava gəmisinin uçuşa yararlığı haqqında Sertifikat və ixracat vəsiqəsi;

19.2.5 Ekipaj üzvlərinin və hava gəmisi bələdçilərinin qüvvədə olan Şəhadətnamələrinin surətləri (hava gəmisi tam icarəyə götürüldükdə).

19.3 İcarəyə götürülmüş hava gəmisinin müvəqqəti uçota alınması haqqında sənəd dövlət rüsumu ödənilməklə verilir.

19.4 İcarəyə götürülmüş hava gəmisinin müvəqqəti olaraq uçota alınması üçün rüsumun miqdarı Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

19.5 İcarəyə verilmiş azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış mülki hava gəmisinin icarəyə verilməsi haqqında dövlət reyestrində qeyd edilir.